No: 01 2025
http://doi.org/0000-0000-0000-0000
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# TƏLƏBƏLƏRİN SOSİAL İNTELLEKTİ VƏ MƏDƏNİYYƏT ARASINDAKI ƏLAQƏNİN EMPİRİK TƏHLİLİ

**Səbinə Əlizadə**
https://orcid.org/0000-0002-0717-7197
*sabina.az@gmail.com*
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: sabina.az@gmail.com; Tel.: +994506436035*

## XÜLASƏ

Məqalədə tələbələrin sosial intellekti ilə mədəniyyət arasındakı əlaqənin empirik təhlili aparılır. Göstərilir ki, sosial intellektin əsasında, ilk növbədə, fərdi quruluş və mədəniyyət durur. Ona görə də fərdlərin dəyişməsi üçün tələb olunan təməl imkanları, onlarda həmin imkanları inkişaf etdirmək tələbatı, motivi, yönəlişliyi, eləcə də onların yaşadıqları mədəni mühitin xüsusiyyətlərinin müəyyən edilməsi lazım gəlir. Belə ki, tələbəlik illərində gənclərdə şəxsi problemləri müstəqil olaraq həlletmə yolları müəyyənləşir, onları həyata keçirmək üçün bacarıqlar yaranır. Buna səbəb, ilk növbədə, tələbələrdə davamlı olaraq verbal (sosial) intellekt təcrübəsinin inkişaf etməsidir. Hazırda gənclər özlərini işdə, ünsiyyətdə, ictimai, elmi- yaradıcı fəaliyyətdə tanıyırlar, daxili imkanlarını kəşf edirlər, dərk edirlər. Bu da özünüyaratmadır. Özünüyaratma bəzən də ziddiyyətlərlə baş verir. Dəyişmənin müddəti və nəticələrinin necə olacağı sualının cavabı isə, təəssüf, hər zaman aydın olmur. Belə bir mədəni şəraitdə həyatın mənasını taparaq ona köklənmək, bu sahədə sosial intellektin imkanlarını səfərbər etmək lazım gəlir. Ona görə də bu kimi sualların müəyyən qismini cavablandırmaq üçün tədqiqatın metodoloji bazası ilə tanış olmaq lazım gəlir.

**Açar sözlər:** *tələbə-gənclər, sosial intellekt, mədəniyyət, affiliasiya, sosial rol, meyl, dəyişmə*

## GİRİŞ

İnsan psixikasında, onun bütün sistemlərində və sahələrində baş verən dəyişmə mədəni əsaslar üzərində baş verir. Bu əsasda yeni ənənələr yaranır. Baş verənlərin zəminində isə cəmiyyətin mədəni həyatının əsas tərəfləri olan sosial bilik, sosial təfəkkür və sosial intellekt kimi mürəkkəb, fundamental quruluşlar dayanır. Hazırda sosial psixologiyada insan şəxsiyyətində dəyişməsi mümkün olan bu kimi quruluşlara daha səmərəli təsir göstərməyin yolları axtarılır. Məqsəd insanların fərdiyyətini cəmiyyət üçün əverişli olan sahələrə yönəltmək, şəxsiyyətlərarası münasibətləri nizamlamaq, humanizmi və sinergizmi önə çəkərək dünyan xalqlarının rifahı üçün hər kəsin üstün keyfiyyətlərindən yararlanmaqdır. İnsan şəxsiyyətini dəyişdirmək və inkişaf etdirmək imkanı olan quruluşlarından biri də sosial intellektdir.

Bəs bu necə baş verməlidir, nə dərəcədə mümkündür və hansı nəticələr verə bilər?

"Sosial intellekt" anlayışı psixologiyada ilk dəfə 1920-ci ildə E.Torndayk tərəfindən müzakirəyə çıxarılmışdır [7]. Onun ardınca tədqiqatçılardan R.J. Sternberq [6], B.F. Skinner [5], Q.Ollport [4], D.Qoluman [9] kimi tədqiqatçılar da sosial intellektin insanın həyatının bütün sahələrində təzahür edən xüsusiyyət olması fikrini irəli sürdülər. Aydın oldu ki, fərdin başqaları ilə birlikdə və ya başqalarına münasibətdə hərəkət etdiyi zaman öz fəaliyyətini daha səmərəli, hamını qane edəcək tərzdə tənzimlənməsi onun sosial intellektin əsas göstəricisi kimi çıxış edir. Bundan başqa, sosial intellektin insanın həyat tərzini seçməsinə, peşə fəaliyyətində uğur qazanmasına təsiri də aşkar edib.

Aydın məsələdir ki, mədəniyyətin sosial intellektə təsirini onun sosial rol davranışında, attidyüd və affiliasiyada, nəhayət, sosial və emosional intellektin quruluşunda axtarmaq lazım gəlir. R.Əzimova bu baxımdan insanı *"zəmanəsinin daşıyıcısı"* adlandırır. *"İnsanın keçmiş olduğu yola yenidən nəzər yetirilməsi*

*güman etməyə əsas verir ki, XXI əsrdə də insan, həmçinin ona qədər olanları və bu gün onu "qidalandıranın" hamısını özündə toplayıb cəmləmləmişdir. İnsan özü haqqında bildikləri və bilmədiklərinin daşıyıcısıdır. Həyatın fenomenoloji parametrləri həmin insani mahiyyətin ölçüsüdür" [2, s. 41].*

Ə.Ə.Əlizadə və H.Ə.Əlizadə məsələnin bu dərəcədə ciddiliyini, "insan-mədəniyyət" sisteminin sıx qarşılıqlı əlaqəsini və təsirini əsaslandıraraq bildirirlər ki, *"mədəniyyət insanın "ikinci təbiətidir", onun yaratdığı simvolik mühitdir. Mədəniyyət məkanı çoxcəhətlidir: mifologiya, dil, incəsənət, din, elm, təhsil, insanların birgə istehsal və məişət faliyyəti - bunların hamısı mədəniyyət sahəsinə daxildir. Təəssüf ki, bizim psixologiya və pedaqoji ədəbiyyatımızda bir qayda olaraq məsələnin bu yönümdə təhlilinə dəyərincə diqqət yetirilmir" [1, s. 5].*

Bunun baş verməsi üçün tələbələrə əlverişli proqramlar təklif olunmalı, inkişaf yolları göstərilməlidir. Əlbəttə, sosial intellektin psixoloji aspektləri ilə tanış olmaq - özünü təhlil edərək hansı komponentlər üzrə özünü inkişaf etdirməyin, daxili potensialını aşkara çıxarmağın yollarına bələd olmaqdır. Onun psixoloji aspektləri ilə tanış olan tələbələrdə özünü həm şəxsiyyət və subyekt olaraq, həm də peşəkar dərketmə baş verir. Bu zaman o özünün hansı sosial qabiliyyətlərdə daha üstün olduğu tərəflərini ayırd edərək həyata keçirməli olduğu prioritetlərini müəyyənləşdirir. Eyni zamanda, sosial intellektin psixoloji mahiyyətinə bələd olan tələbələr həm cəmiyyətin üzvü olaraq, həm də peşə sahəsində öz yerini sosial bacarıqlarına, intellekt potensialına uyğun olaraq təyin edə bilər. "Sosial intellekt, bir tərəfdən öz tərkibində ümumi intellekti (İQ) birləşdirir, digər tərəfdən onun özünəməxsus sosial (şəxsiyyət keyfiyyətləri ilə bağlı) quruluşlar yaradır. *"Şon Folenoya görə, sosial intellekt, fərdin ətraf mühiti ən yaxşı şəkildə başa düşmək və uğurlu sosial davranışa müvafiq reaksiya verməsi bacarığıdır"* [8].

Bu anlayış ətrafında dolaşan mülahizələrdə insanları qeyri-məyyən nəticələrə yönəldən əsas səbəblərdən biri onun müxtəlif adlarla izah edilməsidir. Məsələn Azərbaycanın elmi mətbuatında onun "sosial intellekt", "sosial zəka", "emosional intellekt", "emosional zəka" və d. bu kimi izahlarına rast gəlirik. Fikrimizcə, bütün fikirlər bu nəticədə ümumiləşməlidir: sosial intellekt-yalnız şəxsi həyatda deyil, sosial mühitdə, ailədə, təhsildə, işdə, ictimai yerlərdə münasib qaydada davranmanı, fəaliyyət göstərməni və ünsiyyət qurmanı ifadə edən, bir sözlə, insanı sosiallaşma imkanları baxımından səciyyələndirən anlayışdır. "*Zəka və ya hazırki dövrümüzdə çox tez-tez rastlaşdığımız "IQ", əslində anadangəlmə olan bir özəllikdir, lakin sosial zəka sonradan öyrənilərək qazanıla bilər, yəni o, inkişaf etdirilməsi mümkün olan zəka növüdür. Həmçinin sosial zəkası yüksək olan insanlar ətrafdakı insanlarla daha uyumlu olurlar. Ünsiyyəti idarəetmə qabiliyyətləri güclüdür*" [9].

Sosial intellekt, həmçinin fərdin yaşadığı coğrafi mühitin də müəyyən təsirləri ilə üzləşir. Relyev, iqlim, hərarət kimi təbii mühit amilləri sayəsində səs və davranışda özünəməxsus quruluşlar sabitləşir. Bu kimi amillərin təsiri ilə fərdin soykökünə, mədəniyyətinə və mühitinə bağlılıq hissi möhkəmlənir. Eləcə də emosional təbiətində öz təhlükəsizliyini qorumaq, yeni təsirlərə uyğunlaşmaq tələbatı yaranır. Sosial intellekt insan fərdində bu paradoksal, yəni bir tərəfdən ənənəviliyə, digər tərəfdən isə müasirliyə əsaslanan tələbatların təsiri ilə tamamilə yeni əsasda deyil, müəyyən dəyişmə və yeniləşmələrlə inkişaf edir.

Hazırda gənclər özlərini işdə, ünsiyyətdə, ictimai, elmi- yaradıcı fəaliyyətdə tanıyırlar, daxili imkanlarını kəşf edirlər, dərk edirlər. Bu da özünüyaratmadır. Özünüyaratma bəzən də ziddiyyətlərlə baş verir. Dəyişmənin müddəti və nəticələrinin necə olacağı sualının cavabı isə, təəssüf, hər zaman aydın olmur. Belə bir mədəni şəraitdə həyatın mənasını taparaq ona köklənmək, bu sahədə sosial intellektin imkanlarını səfərbər etmək lazım gəlir. Ona görə də bu kimi sualların müəyyən qismini cavablandırmaq üçün tədqiqatın metodoloji bazası ilə tanış olmaq lazım gəlir.

Məlumdur ki, sosial intellektin məzmun baxımından mədəniyyətin daşıyıcısı olması sadə bir hadisə deyildir. Bunu üçün düşüncə tərzi, fikir konstruksiyaları, onun davranışda və fəaliyyətdə icrası kimi proseslər burada mühüm rol oynayır. Nəticədə hamı üçün səciyyəvi olan fikir və davranış aktları yaranaraq bizi mədəniyyətin daşıyıcısına çevirir. Beləliklə də mədəniyyət və sosial intellekt arasındakı əlaqənin minillər boyu qəliblənmiş ənənəsi davam edir. Bu ənənə elm adamlarına yalnız XX əsrdə məlum olsa da, bəşəriyyət üçün yeni deyildir. Elmin vəzifəsi bu mürəkkəb prosesin gedişini aydınlaşdırmaqdır. Qarşıya qoyduğumuz vəzifələr də onun həllinə yönəlmişdir. Apardığımız nəzəri təhlillər göstərmişdir

ki, hazırda müasir dövr ənənələri ilə ənənəvi mədəniyyətlərin variasiyasında yaranan amillərin tələbələrin sosial intellektinə təsirləri çoxsahəlidir.

Tələbələrin sosial intellektinin xüsusiyyətlərinə, eləcə də bu xüsusiyyətlərlə mədəniyyət nümunələrinin variasiyasını aydınlaşdırmaq üçün əvvəlcə tələbənin peşə hazırlığında onlar üçün yaradılmış mədəni şəraitdə sosial intellektin xüsusiyyətlərini öyrəndik. Əvvəlcə müxtəlif fənlər üzrə keçirilən akademik məşğələlərdə, mühazirə və seminar məşğələlərində, o cümlədən təcrübələrdə onları müşahidə etdik. Müşahidələrimizi "Sosial intellektin formalaşmasının mədəni-psixoloji əsaslarının tədqiqi üzrə müşahidə gündəliyi" əsasında, planlı şəkildə həyata keçirdik. Müşahidənin planında tələbələrdə sosial intellekt göstəricilərinin təzahür xüsusiyyətlərinin qeydə alınması, sosial intellektin əsasında duran koqnitiv, emosional və davranış komponentlərinə xas olan xüsusiyyətlərin müəyyən edilməsi dururdu. Məsələn, motivləşmə, məqsədqoyma, fəaliyyəti təşkiletmə və səmərəli nəticələrə nail-olma, akademik uğurların əldə edilməsində davamlı fəaliyyət, hərəkətlərin düşünülmüş və məntiqli qurulması, ünsiyyət və münasibətlərdə mədəni normaları gözləmək, birgəfəaliyyətdə səmimilik və başqalarını qəbuletmə və s.). Müşahidələri planlı şəkildə həyata keçirmək üçün izləniləcək keyfiyyətləri cədvəl 1-də sistemləşdirdik.

**Cədvəl 1.**

**Tələbələrin sosial intellektinə təsir göstərən mədəni- psixoloji amillər**

| Komponentlər | Tərkibi | Meyarları |
|---|---|---|
| Koqnitiv | Sosial təfəkkür | • öz hisslərini qavrama və ayırd etmək;<br>• əhval- ruhiyyəni müəyyənləşdirmək;<br>• başqalarının hərəkətlərinə qarşı refleksiya. |
| | Sosial-mədəni təcrübə | • praktik fəaliyyətdə mədəni mühitin tələblərini nəzərə almaq;<br>• fəaliyyəti sosial qiymətləndirmələrə uyğunlaşdırmaq;<br>• fəaliyyətdə yeni mədəniyyət nümunələri yaratmaq. |
| | Sosial persepsiya | • müsahibini dinləmək;<br>• səmərəli fəaliyyət üçün vacib olan informasiyanı emal etmək;<br>• fəaliyyət nəticələrini proqnozlaşdırmaq. |
| Emosional | Sosial həssaslıq | • senzitivlik, emosional situasiyaları ayırd eymək;<br>• emosional əlaqələrdə sosial normaları gözləmək;<br>• baş verənlərə həssas münasibət, empatiya. |
| | Emosiyaları sosial şəraitə görə dəyərlən-dirmə | • sosial situasiyalarda yaranan emosional vəziyyəti anlamaq;<br>• emosiyaların təzahürlərində mədəni şəraiti nəzərə almaq;<br>• emosiyaları intellektual baxımdan dəyərləndirmək. |
| | Özününi-zamlama | • özünütəşkiletmə;<br>• özünənəzarət;<br>•emosional davamlılıq. |
| Davranış | Sosial uyğunlaşma | • başqalarına nəyisə izah etmək, inandırmaq;<br>• ətrafdakılarla açıq qarşılıqlı münasibətlərdə olmaq;<br>• düşdüyü mədəni mühitə uyğunlaşma |
| | Qarşılıqlı sosial təsirlər | • əməkdaşlıq etmək;<br>• birgə fəaliyyət göstərmək;<br>• kollektivdə qarşılıqlı əlaqələr qurmaq. |
| | Bədənin sosiallaşması | • jestlərin dilini anlamaq;<br>• jestlərin sosial situasiyalara uyğunlaşdırılması;<br>• sosial rol modellərini mənimsəmək. |

Müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələrdə müşahidə etdiyimiz xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırdıq.

Fizika ixtisası üzrə.

S.M. Sosial intellekt üzrə yüksək keyfiyyətlərə malikdir. Özünü yaxşı ifadə edir. Emosional intellekti isə qismən zəifdir. Hadisələri olduğu kimi qiymətləndirir. Situasiyalara tez uyğunlaşır. Çətin məsələləri asanlıqla həll edir. Öz hisslərini qavrayaraq tələbatlarını ödəməyə səy göstərir. Fərqli situasiyalarda əhval-ruhiyyəsini uyğun şəkildə tənzimləyir. Başqalarının hərəkətlərinə dözümü yanaşır.

H.İ. Sosial intellekt göstəriciləri yuxarıdır. Birgəfəaliyyətdə mədəni davranış nümayiş etdirir. Öz fəaliyyətini sosial qiymətləndirmələrə uyğunlaşdırır. Özünü təşkil etməyi, özünə nəzarət etməyi və fəaliyyətdə emosional davamlılıq göstərməyi bacarır.

K.A. Situasiyaları normal anlayır, qavrayır, münasibət bildirir. Emosional baxımdan davamlıdır. Dəyişən situasiyalara asan uyğunlaşır. Üzləşdiyi problemləri həlletməyə cəhd göstərir. Yoldaşları ilə əməkdaşlıq edir. Onlarla qrup işində birgə fəaliyyət göstərir. Kollektivdə qarşılıqlı əlaqələr qurmaqda maraqlıdır.

T.A. Situasiyaları obyektiv qiymətləndirir. Səbirlidir, lakin bu onun emosional davamlılığı ilə bağlı deyildir. Bəzi zəruri hallarda ləng reaksiya verir. Koqnitiv problemlərin həllində qismən çətinlik yaşayır. Müsahibini dinləsə də onun nitqindəki mənanı tam mahiyyəti ilə anlamaqda, təlim fəaliyyəti üçün vacib olan informasiyanı emal etməkdə, öz fəaliyyətinin nəticələrini proqnozlaşdırmaqda bir qədər çətinliklər yaşayır.

Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə.

R.A. Öz hisslərini qavramaqda və ayırd etməkdə, əhval-ruhiyyəni müəyyənləşdirməkdə çətinlik çəkir. Başqalarının hərəkətlərinə qarşı zəif refleksiya göstərir. Praktik fəaliyyətdə mədəni mühitin tələblərini əsasən nəzərə alır. Fəaliyyətin sosial qiymətləndirmələrə uyğunlaşdırmaqda seçiciliyə yol verir. Müsahibini dinləməyə, onlarla səmərəli fəaliyyət göstərməyə o qədər də can atmır. Özünütəşkiletmə, özünənəzarət bacarıqları yaşıdlarına qismən aşağıdır. Emosional davamlılığı olsa da, yalnız maraq dairəsində olan məsələlərdə öz fəaliyyətini təşkil etməyə səy göstərir.

H.Ə. Təlim üçün vacib olan informasiya üzərində təmkinlə işləməyi bacarır. Fəaliyyət nəticələrini proqnozlaşdıra bilir. Emosional situasiyaları obyektiv şəkildə ayırd edir. Ünsiyyət və münasibətlərdə mədəni normaları gözləyir. Ətrafda baş verənlərə həssas yanaşır.

F.X. Üzləşdiyi situasiyalarda yaranan emosional vəziyyəti düzgün anlayır. Öz emosiyalarını təzahür etdirərkən mədəni şəraiti nəzərə alır. Özünün və başqalarının emosiyalarını düzgün dəyərləndirir. Başqalarına nəyi isə izah etməyi, inandırmağı bacarır.

N.İ. Ətrafdakılarla açıq qarşılıqlı münasibətlərdə olmaqda çətinlik çəkir. Düşdüyü mədəni mühitə ləng uyğunlaşır. Əməkdaşlıqda tərəddüd edir. Birgə fəaliyyət göstərərkən, kollektivdə qarşılıqlı əlaqələr qurarkən referent qrupla birgə olmağa daha çox üstünlük verir. Başqalarının bədən dilini anlamaqda, öz jestlərini sosial situasiyalara uyğunlaşdırmaqda, rol modellərini mənimsəməkdə yaşıdlarından zəif göstəriciləri ilə fərqlənir.

Bunlardan başqa, müşahidələr nəticəsində müəyyən etdik ki, tələbələr belə hallarda özlərini müstəqil şəkildə şəxsi təcrübələrində sınamaq istəyinə malik olduqlarından, çox vaxt başqalarının təcrübələsinə, izah və tövsiyələrinə, ümumiyyətlə, etibarlı mənbələrə etinasız yanaşır, bütün bunları özlərinin şəxsi həyatına birbaşa müdaxilə kimi qəbul edirlər. Müstəqillik arzusu, məqsədlərinə tez və maneəsiz nail olmaq istəyi və yeni fakt, ideya və mənalarla üzləşmək həvəsi tələbələri buna vadar edir. Belə tələbələr üçün özünəmərkəzləşmə (eqosentrizm), özünün imkan və qabiliyyətlərinə inamlı yanaşma kimi müsbət keyfiyyətlər xarakterik olsa da, onların əksmənalı tərəfləri: neqativlik, şübhə, diqqətsizlik, tələskənlik, laqeydlik, eqoizm də özünü göstərir. Bəzi tələbələrdə isə əksmənalı keyfiyyətlər müşahidə edilir.

Məsələn, tələbələrin affiliasiya motivlərinə diqqət yeritsək, bunu aydın görə bilərik. Bu nəticələr G.Merreyin "Affiliasiya motivlərinin diaqnostikası" metodikası əsasında əldə edilmişdir [3]. Metodikanın məqsədi ətrafdakı insanlar tərəfindən qəbul olunmağa çalışmaq (QO) və digər insanlar tərəfindən rədd edilmək qorxusunun iki motivinin öyrənilməsidir (RE). G.Merreyə görə, mənsubiyyət, insanın yaxınları ilə əlaqə saxlamağa, ünsiyyət qurmağa olan mühüm ehtiyacdır. Təlimata görə test xarakterin müəyyən aspektləri ilə bağlı bir sıra ifadələrdən, eləcə də bəzi həyat situasiyaları haqqında fikir və hisslərdən ibarətdir. I şkala (QO) - qəbul olunma. II Şkala (RE) - rədd edilmək qorxusu.

**Cədvəl 2.**

**Sınanılanlarda affiliasiya motivinin xüsusiyyətləri**

| Qəbul olunma şkalası (QO) | Rədd edilmək qorxusu (RE) |
|---|---|
| Xüsusiyyətlər | |

| | |
|---|---|
| • İnsanlarla asanlıqla anlaşır.<br>• Əsəbləşdiyi zaman tək qalmaqdansa, insanlar arasında olmağı üstün tutur.<br>• Əgər seçim etməli olsa, ünsiyyətcil və mehriban deyil, qabiliyyətli və çevik olmağa üstünlük verir.<br>• Mümkün qədər çox dost qazanmağı xoşlayır.<br>• Kollektiv işdənsə müstəqil işi üstün tutur.<br>• Küçədə bir dostu ilə rastlaşanda ona salam verməklə yanaşı, bir neçə kəlmə də olsa söhbət etməyə çalışır.<br>• İctimai təşkilatlarla əlaqələr qurur, çünki dostluq etmək üçün yaxşı yoldur.<br>• Əgər vacib bir qərar verməli olsa, təkbaşına düşünməkdənsə, dostlarla məsləhətləşməyi üstün tutur. Həddindən artıq açıq dostluqlara etibar duymur.<br>• Çox yaxın dostları var.<br>• Bəyənsələr də, sevməsələr də, yad insanlarla birlikdə olmaq onun üçün heç bir əhəmiyyət kəsb etmir.<br>• Qrup oyunlarındansa, fərdi oyunlara və əyləncələrə üstünlük verir.<br>• Açıq emosional insanlar onu daha çox cəlb edir.<br>• Ziyafətdə vaxt keçirməkdənsə, maraqlı kitab oxumağı və ya kinoya getməyi üstün tutur.<br>• Səyahət edərkən insanlarla ünsiyyət qurmaqdan daha çox mənzərələrdən həzz almağı və ya görməli yerləri tək ziyarət etməyi xoşlayır.<br>• Çətin məsələni düşünəndə onu dostlarla müzakirə etməkdənsə, təkbaşına həll etmək daha asan gəlir.<br>• İnanır ki, çətin həyat vəziyyətlərində dostların köməyinə güvənməkdənsə, yalnız öz gücünə güvənməlidir.<br>• Hətta bir komandada təcili məsələlərlə bağlı özümü narahatlıqlardan tamamilə yayındırmaq onun üçün çətindir gəlir.<br>• Hər dəfə yeni mühitdə, tez və çoxlu tanışlar qazanır.<br>• Hansısa maraqlı məclisdən daha çox sevdiyi işlə keçirdiyi axşam onu özünə cəlb edir.<br>• Şəxsi azadlığı itirməmək üçün insanlarla çox yaxın münasibətdən qaçır. | • Tanımadığı cəmiyyətdə olmağa utanır.<br>• Əgər məclisi bəyənməsə, oraya birinci getmir.<br>• Əgər yaxın dostu tanımadığı adamların yanında ona zidd danışmağa başlasa, çox inciyİr.<br>• Tənqid edən insanlarla daha az ünsiyyət qurmağa çalışır.<br>• İki dostu mübahisə edəndə onlara qarışmamağa üstünlük verir.<br>• Əgər kiminsə onunla gəlməsini istəsə və o, imtina etsə, səbəbini soruşmağa cəsarət etmir.<br>• Fikirlərini yaxşı ifadə etməkdə ehtiyatlanır.<br>• Əgər söhbət əsnasında nəyisə başa düşməyibsə, boş verməyi üstün tutur.<br>• İnsanlara “yox” demək onun üçün çətindir.<br>• Orada vəziyyətin yaxşı olmayacağını bilsə belə, məclislərdən həzz alır.<br>• Tənqidlərə qarşı həssasdır.<br>• Əgər kimsə onu bəyənmirsə, bu insandan qaçmağa çalışır.<br>• İnsanları incitməkdən qorxduğu üçün nadir hallarda onlarla mübahisə edir.<br>• Çox vaxt ona elə gəlir ki, yad adamlar ona tənqidi baxırlar.<br>• Tanımadığı bir məclisə gedəndə özü ilə dost götürməyə üstünlük verir.<br>• Həm söhbət üçün xoşagəlməz olsa belə, tez-tez düşündüyünü deyir.<br>• Bəzən heç kimə lazım olmadığını düşünür.<br>• Yeni biri ilə tanış olduqdan sonra, özünü necə aparmağından narahat olmur.<br>• Bir şey üçün vəzifəli adama müraciət etməli olanda həmişə rədd cavabı alacağını gözləyir.<br>• Nə vaxt satıcıdan bəyəndiyini göstərməsini xahiş edir, seçimdə özümü güvənsiz hiss edir.<br>• Əgər tanışının davranışından narazıdırsa, adətən bunu birbaşa ona göstərir.<br>• Nəqliyyatda gedərkən oturursa, ona elə gəlir ki, insanlar ona məzəmmətlə baxır. |

QO və RE üzrə dörd növ motiv fərqləndirilərək aşağıdakı dörd qrup müəyyənləşir: yüksək - aşağı (QO orta normadan yuxarı, RE orta normadan aşağıda); aşağı - aşağı (QO orta normadan aşağı, RE orta normadan aşağı); yüksək - yüksək (QO orta normadan yuxarı, RE orta normadan yuxarı); aşağı -yüksək (QO orta normadan aşağı, RE orta normadan yuxarı). Cədvəl 2-də “Affiliasiya motivlərinin diaqnostikası” metodikasında verilmiş mülahizələrin bir qismi verilmişdir. Bu mülahizələr bizə tələbələrin sosial intellektinin məzmun baxımından mədəniyyətlə nə dərəcədə əlaqəli olduğunu göstərir. Xüsusən, əgər biz affiliasiyadan danışırıqsa, buna heç bir şübhə qalmır.

188 tələbə ilə keçirilən bu testin nəticələri cədvəl 3-də verilmişdir.

"Yüksək-aşağı" qrupunun subyektləri “qrup tərəfindən qəbul edilmək arzusu” (motivi) ilə xarakterizə olunur. “Aşağı-yüksək” qrupun subyektləri üçün motiv “rədd edilmə qorxusu”dur. Digər iki qrupun subyektlərində bu motivlərin intensivliyi təxminən eynidir. Onlarda gərginlik olduğu göstərilir. “Yüksək-yüksək” qrupdakı sınanılanlarda qrup tərəfindən rədd edilmək qorxusu onların digər insanlarla münasibətində qəbuledilmə ehtiyaclarının ödənilməsinə mane olur.

**Cədvəl 3.**

**Sınanılanlarda affiliasiya motivinin səviyyələri**

| S. | Şkalalar | səviyyələr | | | |
|---|---|---|---|---|---|
| | | yüksək | orta | aşağı | çox aşağı |
| 1. | Şkala (QO) - qəbul olunma. | 63 | 70 | 49 | 6 |
| | | 33,51 % | 37,23 % | 26,06 % | 3,19 % |
| 2. | Şkala (RE) - rədd edilmək qorxusu. | 56 | 85 | 31 | 16 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 29,78 % | 45,21 % | 16,48 % | 8,51 % |

Həm nəzəri təhlillər, həm də müşahidə nəticələri tələbələrin sosial intellektində mədəniyyətin təsirini ayırd etməyə imkan verir. Belə ki, tələbələrin sosial intellektinin mədəni xüsusiyyətlərini aydınlaşdırmaq üçün əvvəlcə tələbənin peşə hazırlığında onlar üçün yaradılmış mədəni şəraitdə sosial intellektin xüsusiyyətlərini öyrənmək lazım gəlir. Müasir gənclik ənənələrin yenilənməsi dövründə yaşayır. Ona görə də yeni ənənələrin yerinə özünəməxsus mənaların kəşfi baş verir. Daha çox insan məqsədsiz və boşluq hissi ilə üzləşir.

Digər məsələ bununla bağlıdır ki, tələbəlik illəri gənclik dövrünə təsadüf edir. Həmin dövrdə gənclərdə bir tərəfdən peşə fəaliyyətinə, digər tərəfdən ailə həyatına hazırlıq prosesi gedir. Öz taleyini həll etmək, həyati planlar qurmaq, uğurlar qazanmaq üçün sosial bacarıqlara nail olmaq onların başlıca vəzifəsinə çevrilir. İctimailəşməli olduqlarını, şəxsi həyatını qurmaqda və idarə etməkdə bilavasitə məsuliyyət daşıdıqlarını anlayırlar.

**Ədəbiyyat:**

1. Əlizadə, Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya// Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. - Bakı: - ADPU-nun mətbəəsi, - 2010. - 600 s.
2. Əzimova, R. İnsanşünaslıq -XXI əsrin elmidir / R.Əzimova. - Bakı: Təknur, 2012. - 156 s.
3. Водяха, Ю.Е. Психологическая диагностика сфер личности: лабораторный практикум / Ю.Е. Водяха. - Екатеринбург: - Уралский ГПУ, 2018. – 220 с.
4. Allport, G.W. (1961). Pattern and growth in personality. NY. Holt, Rinehart and Winston //American Journal of Applied Psychology, 2013, Vol. 1 No. 1, 7-13
5. Skinner, B. F. (1990 a). Can psychology be a science of mind? American Psychologist, 45 (11), 1206-1210.
6. Sternberg, R. J. Creating a vision of creativity // The first 25 years. Psychology of Aesthetics, Creativity, and the Arts, 2006, s (1), 2-12.
7. Thorndike, E.L. Intelligence and its uses // Harper's Magazine. - 1920. - № 140. - c. 227-235.
8. https://ru.wikipedia.org/wiki// Социальный интеллект
9. https://www.labirint.ru/books/808194// Гоулман Д. Социальный интеллект.

## РЕЗЮМЕ

## ЭМПИРИЧЕСКИЙ АНАЛИЗ ВЗАИМОСВЯЗИ СОЦИАЛЬНОГО ИНТЕЛЛЕКТА СТУДЕНТОВ И КУЛЬТУРЫ

**Сабина Хикмет кызы Ализаде**

В статье проводится эмпирический анализ взаимосвязи социального интеллекта студентов и культуры. Показано, что социальный интеллект в первую очередь базируется на индивидуальной структуре и культуре. Поэтому необходимо определить основные возможности, необходимые для изменения личности, потребность, мотивацию, ориентацию на развитие этих возможностей, а также особенности культурной среды, в которой они живут. Таким образом, в студенческие годы у молодых людей определяются способы самостоятельного решения личностных проблем, формируются навыки их реализации. Причиной этого является, прежде всего, непрерывное развитие речевого (социального) интеллектуального опыта у студентов. В настоящее время молодые люди осознают себя в работе, общении, общественной и творческой деятельности, открывают и понимают свой внутренний потенциал. Это самотворение. Самодисциплина иногда сопряжена с противоречиями. К сожалению, ответ на вопрос о продолжительности и последствиях изменений не всегда однозначен. В такой культурной среде необходимо найти смысл жизни и привыкнуть к нему, мобилизовать возможности социального интеллекта в этой области. Поэтому, чтобы ответить на определенную часть подобных вопросов, необходимо ознакомиться с методологической базой исследования.

**Ключевые слова:** *студенческая молодежь, социальный интеллект, культура, принадлежность, социальная роль, тенденция, изменение.*

## SUMMARY

## EMPIRICAL ANALYSIS OF THE RELATIONSHIP BETWEEN STUDENTS' SOCIAL INTELLIGENCE AND CULTURE

**Sabina Hikmet gizi Alizadeh**

In the article, an empirical analysis of the relationship between students' social intelligence and culture is carried out. It is shown that social intelligence is primarily based on individual structure and culture. Therefore, it is necessary to determine the basic opportunities required for the change of individuals, the need, motivation, orientation to develop those opportunities, as well as the characteristics of the cultural environment in which they live. Thus, during the student years, the ways of independently solving personal problems are defined in young people, and the skills to implement them are created. The reason for this is, first of all, the continuous development of verbal (social) intellectual experience in students. Currently, young people recognize themselves in work, communication, social, scientific and creative activities, discover and understand their inner capabilities. This is also self-creation. Self-creation sometimes occurs with contradictions. The answer to the question of the duration of change and what its consequences will be, unfortunately, is not always clear. In such a cultural environment, it is necessary to find the meaning of life and focus on it, and to mobilize the capabilities of social intelligence in this area. Therefore, in order to answer a certain part of such questions, it is necessary to get acquainted with the methodological basis of research.

**Keywords:** *student-youth, social intelligence, culture, affiliation, social role, tendency, change.*